Ədəbiyyat QƏZETİ

16 yanvar 2026-cı il 15

## Qəni CAMALZADƏ-70



Hörmətli Qəni müəllim!

Sizi 70 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz 1956-cı ildə Azərbaycanın Lerik rayonunda dünyaya göz açmış, kiçik yaşlarınızdan ailənizlə birlikdə Bakı şəhərinə köçmüsünüz. 1971-ci ildə orta məktəbi, 1977-ci ildə Azərbaycan Politexnik İnstitutunu bitirib, istehsalatda müxtəlif vəzifələrdə çalışmısınız. 1992-1993-cü illərdə Azərbaycan Ordusu sıralarında Qarabağ döyüşlərində vuruşmusunuz.

Amma siz həm də söz ordusunda döyüşçü olmuş və olmaqdasınız. İlk hekayəniz "Ədəbiyyat və İncəsənət" qəzetində 1976-cı ildə, hələ tələbə ikən dərc olunub. Oxucular sizin yumoristik və satirik ruha malik hekayələrinizi o dövrün "Kirpi", "Azərbaycan", "Ulduz", "Literaturnıy Azerbaydjan" kimi jurnallarında oxuyub, bəyəniblər. Hekayələriniz 1984-cü ildə "Yeni səslər" almanaxında, 1985-ci ildə "Yaxşı oğlanın dayısı" kitabında işıq üzü görəndən sonra gənc yazıçı kimi imzanız öz təsdiqini tapıb. Məlum olaylarla bağlı bir müddət ədəbiyyatdan uzaq düşsəniz də, "Sonuncu yeznə" adlı növbəti hekayələr kitabınız 1998-ci ildə işıq üzü görüb. 2002-ci ildə daha bir hekayələr toplusunu - "Qohumların əsiri"ni nəşr etdirmisiniz.

Sonra yaradıcılığınızın daha məhsuldar və həcmli dövrü - roman mərhələsi başlayıb. Bir-birinin ardınca iki romanınız - "Qızıl xotuq" və "Karxana" "Azərbaycan" jurnalında dərc olunub. "Золотой осленок" romanı "Literaturnıy Azerbaydjan" jurnalında rus dilində işıq üzü görüb. 2007-ci ildə "Qızıl xotuq", 2015-ci ildə "Karxana" romanı kitab halında oxuculara təqdim olunub. Romanlarınız rus və ingilis dillərinə çevrilib, "Золотой осленок", "Karyer", "The Quarry" Nyu-York şəhərində nəşr edilərək "Amazon" şirkəti tərəfindən yayımlanıb. Siz əsərlərinizi xarici ölkələrdə nəşr etdirməklə Azərbaycan ədəbiyyatının xaricdə təbliğinə öz dəyərli töhfənizi vermisiniz.

Sevindirici və təqdirəlayiqdir ki, son illərdə roman sahəsindəki uğurlarınız daha qabarıq nəzərə çarpır. 2021-ci ildə "Kiaksarın axırıncı savaşı", 2023-cü ildə isə "Şeytana daş atanlar" romanını kitab halında çap etdirmisiniz. 2023-2024-cü illərdə "Qanun" nəşriyyatı seçilmiş əsərlərinizin 15 cilddə nəzərdə tutulmuş çapına start verib. Artıq bu seriyadan altı cild işıq üzü görüb.

Hörmətli Qəni Camalzadə!

Sizi bir daha 70 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edir, bundan sonrakı ədəbi fəaliyyətinizdə uğurlar və möhkəm cansağlığı arzulayırıq.

*Azərbaycan Yazıçılar Birliyi*